# “Heydər Əliyev və azərbaycançılıq məfkurəsi”



**Ağcabədi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Bayraq Muzeyində “Heydər Əliyev və azərbaycançılıq məfkurəsi” mövzusunda konfrans keçirilib.**

Məclis iştirakçıları muzeyin foyesində Heydər Əliyev Mərkəzinin təşkil etdiyi ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto, rəsm və kitablardan ibarət sərgi ilə tanış olublar. Sonra salonda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirilib. Ağcabədi Rayon İcra Hakimiyyətinin başçıcı Rafil Hüseynov giriş sözündə milli özünüdərk və azərbaycançılıq məfkurəsinin formalaşmasında dahi liderin əvəzsiz xidmətindən ətraflı söz açıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının direktor müavini, dosent Mahir Səlimov məruzəsində ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının taleyində oynadığı misilsiz roldan, onuntitanik siyasi fəaliyyətindən geniş söz açıb. Natiq bildirib ki, müasir, güclü Azərbaycanın qurulmasında, inkişaf etməsində dahi şəxsiyyətin misilsiz xidmətləri qədirbilən Azərbaycan xalqı tərəfindən həmişə yüksək qiymətləndirilib və Vətənini sevən hər kəsin yaddaşına ömürlük həkk olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbənin müdiri Əlizadə Nəcəfov, ADPU Ağcabədi filialının kafedra müdiri, dosent Vaqif Allahverdiyev, şəhər 5 saylı tam orta məktəbin direktoru Fəridə Allahverdiyeva, Gənclər və İdman İdarəsinin rəis müavini Eldəniz Qənbərov Heydər Əliyev ideyalarının, uzaqgörən siyasətinin uğurlu bəhrəsi olaraq Azərbaycanın Avropa, eləcə də dünya arenasındakı yüksək nüfuzundan və regionda lider dövlət olmasından danışıblar. Onlar bildiriblər ki, Azərbaycan xalqının dahi rəhbərə sonsuz sevgisi və dərin ehtiramı əbədi davam edəcək.

**Gündüz SEVİNDİK**

Xalq qəzeti .- 2023.- 1 aprel.- S.6.